DOI: 10.36719/2663-4619/58/67-71

**Mehparə Kamran qızı Əhmədova**
Naxçıvan Dövlət Universiteti
ehmedovamehpare69@gmail.com

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARIN TƏHSİLİNİN YARANMASI TARİXİ VƏ İNKIŞAFINA NƏZƏRİ BAXIŞ

**Xülasə**

Məqalədə sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin yaranması tarixi və inkişafından bəhs edilir. Sağlamlıq imkanları məhdud olan şəxslərin inklüziv təhsilə cəlb olunması yolları araşdırılmış, onların cəmiyyətə inteqrasiyası, bu sahədə dövlət tərəfindən qəbul edilmiş proqramlar və onlar üçün maneəsiz mühitin yaradılması ilə bağlı gələcək addımların müəyyənləşdirilməsi açıqlanılır. Göstərilir ki, hər bir uşaq inklüziv təhsil imkanından yararlanaraq onları əhatə edən cəmiyyətdən ayrılmadan, cəmiyyətin fəal üzvünə çevrilməli, heç bir uşaq əlilliyinə görə təhsildən, cəmiyyətdən kənarda qalmamalıdır.

Sonda əsaslandırılır ki, sağlamlıq imkanları məhdud şəxslərin rastlaşdığı bir çox problem var ki, onlar inkluziv cəmiyyətin yaranmasına və ümumiyyətlə təhsilli əhalinin yetişməsində ciddi çətinliklər yaradır. Ölkəmizdə inkluziv təhsil sisteminin mövcud olmaması başlıca problemlərdəndir. Qeyd olunur ki, Sağlamlıq imkanları məhdud uşaqların həyatında ciddi irəliləyişlərə səbəb ola biləcək əsas amillərdən biri də müyəssər infrastrukturun yaradılmasıdır. Belə ki, müyəssər infrastrukturun olmadığı bir şəraitdə təhsillə bağlı proqramlar heç bir ciddi effekt verə bilməz.
***Açar sözlər:*** *İnkluziv təhsl, sağlamlıq imkanları məhdud olan uşaqlar, xüsusi məktəblər, təlim-tərbiyə, ümumtəhsil məktəbləri*

## Theoretical review of the emergence history and development of education for children with disabilities

**Summary**

The article discusses the history and development of education for children with disabilities. Ways to involve people with disabilities in inclusive education are explored, their integration into society, programs adopted by the state in this area and the identification of future steps to create a barrier-free environment for them are announced. It is stated that every child should take advantage of the opportunity for inclusive education and become an active member of society without being separated from the society that surrounds them, and no child should be excluded from education and society due to disability.

In conclusion, it is argued that there are many problems faced by people with disabilities that pose serious challenges to the development of an inclusive society and to the development of an educated population in general. One of the main problems in our country is the lack of an inclusive education system. It is noted that one of the main factors that can lead to significant improvements in the lives of children with disabilities is the creation of accessible infrastructure. Thus, in the absence of accessible infrastructure, education-related programs cannot have any serious effect.
***Key words:*** *Inclusive education, children with disabilities, special schools, education, secondary schools*

## Giriş

Təhsil bütün tarixi məqamlardakı inkişaf mərhələsində insanların həyatında müstəsna əhəmiyyət kəsb etmişdir. Müasir dövrdə isə təhsil artıq insan həyatının bütün tərəflərini əhatə etdir. Hər bir insan müəyyən sosial qrupun nümayəndəsidir və hər bir uşağın pulsuz təhsil almaq hüququ vardır. Demokratik ölkədə hər bir insanın doğulduğu cəmiyyətdə yaşamaq və öyrənmək hüquqları bərabər olmalıdır. Təhsil sahəsində dövlət siyasətinin bərabərlik prinsipində də qeyd edildiyi kimi, bütün vətəndaşların bərabər şərtlər əsasında təhsil almasına imkanlar yaradılmalı və təhsil hüququ təmin olunmalıdır. Lakin Sağlamlıq imkanları məhdud olanlar uzun illərdir ki, təhsil almaqla bağlı bir sıra çətinliklərlə üzləşirlər. Belə uşaqların problemlərinin araşdırılması hər dövr üçün aktual məsələlərdən olmuşdur.

İlk dəfə qədim yunan folosofu, ensiklopedik alimi Aristotel fiziki və pisixi cəhətdən nöqsanı olan uşaqlar haqqında "Hiss edənlərin hissləri haqqında", "Hissi qavrayışlar və onların obyektləri haqqında" adlı əsərlərində bəhs etmişdir. İnsanın formalaşmasında eşitmə qavrayışı və nitqin roluna dair faktların təhlilə əsasən Aristotel belə bir nəticəyə gəlmişdir ki, karlıq-lallıq uşağın əqli qabiliyyətlərinə və idrak fəaliyyətinə ciddi təsir edir.

Qədim zamanlardan bu günə qədər onlar sağlam insanlarla birgə yaşayıb fəaliyyət göstərmişlər. Ümumiyyətlə, hər bir tarixi mərhələdə fiziki və pisixi cəhətdən nöqsanı olan uşaqlara baxışlar, münasibətlər müxtəlif olmuşdur. Qədim Yunanıstanda fiziki və pisixi cəhətdən nöqsanlı uşaqlara əsil insan kimi baxılmırdı. Zəif doğulmuş və ya xəstə uşaqları qayadan atırdılar. Qüsurlu uşaqlara qarşı bu münasibət dövlətin qanunçuluğunda da öz əksini tapmışdı. Belə ki, Yunanıstanın qanununda onların vətəndaşlıq hüquqları məhdudlaşdırılmışdı.

Orta əsrlərdə fiziki və pisixi cəhətdən nöqsanı olan uşaqlara Roma-katolik kilsəsinin münasibəti də düzgün deyildi. Onların fikrincə belə uşaqların valideynləri Allahın qəzəbinə düçar olmuş, Allah da onlardan nitq və görmə kimi nemətləri əsirgəmişdir. Belə uşaqların yaşamağa haqqı yox idi.

Fiziki və pisixi cəhətdən nöqsanı olan uşaqların tərbiyəsinə münasibət intibah dövründə əsaslı surətdə dəyişilməyə başladı. Ceralama Kardono (1501-1576) kar-lal uşaqlar üçün təlim sistemini irəli sürdü.

XV-XVIII əsrlərdə kar uşaqların fərdi təlimi yarandı və bu sahədəki təcrübə inkişaf etdi. Onlara ana dili (italyan, ispan, ingilis və s.) və qədim yunan dillərini (yunan, latın) müəlimlər, həkimlər, rahiblər və valideynlər öyrədirdilər.

Kor uşaqlar üçün əlifbanı Brayle Lui (1809-1852) kəşf etmişdir. O üç yaşında görmə qabiliyyətini itirmişdir. Brayle Lui korlar üçün məktəb təşkil etmiş və həmin məktəbdə müəllim işləmişdir. O, korlar üçün dünyada qəbul olunmuş relyefli-nöqtəli əlifbanı ixtira etmişdir. Həmin qabarıq nöqtənin müxtəlif kombinasiyalarından istifadə edərək, bütün hərf və rəqəmlərin işarələrini, habelə riyaziyyat və not işarələrini yaratmışdır. Brayle Lui eyni zamanda istedadlı musiqiçi olmuş və məktəbdə musiqi fənnindən də dərs demişdir. Brayle Luinin əlifbası ilə 1837-ci ildə çap olunmuş ilk kitab "Fransa tarixi"dir. Respublikamızda bu əlifbadan 1938-ci ildən istifadə olunur (S.Qasımov, Y.Talıbov, 2000: 8).

1770-ci ildə Parisdə lal-kar uşaqlar üçün ilk tədris müəsisəsi açıldı. Sonralar isə belə məktəblər 1806-cı ildə Rusiyanın Pavlovsk, 1807-ci ildə isə Peterburq şəhərində açıldı. 1859-cu ildə Qallda fiziki və psixi inkişafı nöqsanlı uşaqlar üçün ilk yardımçı sinif, 1867-ci ildə Drezdentdə ilk köməkçi məktəb, 1908-ci ildə isə Moskvada fəaliyyətə başlamışdır.

Azərbaycan Demokratik Cumhuriyyətinin fəaliyyəti illərində Sağlamlıq imkanları məhdud olan uşaqların təlim-tərbiyə məsələlərinə diqqət yetirilsə də, bu sahədə əsaslı işlər görülməmişdir.

Azərbaycanda bu sahədə iş sovetləşmə dönəmində yenidən gündəmə gəldi. 25 sentyabr 1925-ci ildə Bakı şəhərində internatı olan yardımçı məktəb və I dərəcəli məktəblərin nəzdində yardımçı qruplar açıldı.

1925-ci il tarixli Bakı Xalq Maarif şöbəsinin qərarı ilə Tibbi-psixoloji laborotoriya yaradıldı. Uşaqlar həkim-pedaqoq məsləhət müayinəsindən hərtərəfli keçirilərək, uşaq kollektivində laborotoriyada müşahidə olunurdular.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı 1932-ci il mart ayının 25-də "Əqli cəhətdən geri qalmış kor, kar və lal uşaqlar üçün xüsusi məktəblərdə təlim-tərbiyə işinin yaxşılaşdırılmasına dair praktik tədbirlər" haqqında sərəncam verdi və bu sərəncam əqli və fiziki cəhətdən geridə qalan uşaqların təlim-tərbiyə işini xeyli genişləndirdi. Belə ki, respublikada 4 xüsusi məktəb: karlar üçün bir, korlar üçün bir, əqli zəif olanlar üçün iki internat məktəb açıldı.

1937-ci il 9 apreldə Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən "Xüsusi məktəblərin şagirdlərinin əmək hazırlığı haqqında 204 saylı əmri verildi. Verilən bu əmrə əsasən xüsusi məktəblərdə peşə-əmək məktəblərinin yaranmasına səbəb oldu.

1949-cu ildə Bakıda 3 xususi məktəb: kar və korlar üçün bir məktəb, fiziki və əqi cəhətdən geridə qalanlar üçün iki internat məktəbi açıldı. 1958-ci ildə isə "Yaş və pedaqoji psixologiya" laborotoriyası yaradılaraq, respublikanın şəhər və rayonlarında 6-7 yaşlı anomal uşaqların tərkibi öyrənildi.

1961-1963-cü illərdə sonradan kar olmuş, əqli cəhətdən geri qalan, əqli və fiziki cəhətdən geri qalan uşaqlar üçün internat məktəblər şəbəkəsi genişləndirildi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra respublikamızda Sağlamlıq imkanları məhdud olan uşaqların təhsili ön plana çəkildi. SİM olan uşaqların təhsili problemi müəllim, psixoloq, pedaqoqların diqqətini cəlb etməklə yanaşı, Azərbaycan dövlətinin təhsil siyasətinin prioritetlərindəndir. Məhz milli təhsil sisteminin keyfiyyətcə yeni mərhələyə keçməsi, təhsil, tərbiyə və inkişaf prosesinə bütün uşaqların, eyni zamanda qüsurları olan uşaqların da cəlb edilməsini nəzərdə tutur.

"İnkluziv təhsil" anlayışına təhsil sahəsində tez-tez rast gəlirik. İnklüziv təhsil xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumi təhsil müəssisələrində sağlam uşaqlarla birgə təhsil almasıdır. İnklüziv təhsil həm sağlam, həm də sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə sağlam adaptasiyası üçün mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, dünyanın bir çox ölkələrində (Böyük Britaniya, ABŞ, İsveçrə və s.) SİM olan uşaqlar digər yaşıdları ilə birlikdə ümumtəhsil məktəblərində təhsil alır və uşaq bağçalarına gedirlər. "Məktəb aydın

şəkildə qeyri-standart olmayan kütləyə standart tələblərin irəli sürüldüyü bir müəssisədir" (L.O.Badalyan, 1987: 126).

İnklüziv təhsillə bağlı qəbul edilən ilk rəsmi və bir çox ölkənin imzaladığı sənəd Salamanka Bəyənnaməsidir. 1994-cü ilin iyununda 92 hökuməti və 25 beynəlxalq təşkilatı təmsil edən 300-dən çox iştirakçı İspaniyanın Salamanca şəhərində bir araya gələrək, İnklüziv təhsili təşviq etmək üçün əsas siyasət dəyişikliklərinin tələb olunduğunu nəzərə alaraq, məktəblərin bütün uşaqlara, xüsusən də xüsusi təhsil ehtiyacları olan uşaqlara xidmət göstərə biləcəyini düşündü. İspaniya hökuməti və YUNESKO tərəfindən təşkil edilən Konfrans, Xüsusi Ehtiyaclı Təhsildə Prinsiplər, Siyasət və Təcrübə haqqında Salamanka Bəyanatı və Fəaliyyət Çərçivəsini qəbul etdi. Onun rəhbər prinsipi odur ki, adi məktəblərdə fiziki, intellektual, sosial, emosional, dil və digər şərtlərdən asılı olmayaraq bütün uşaqları yerləşdirməlidir. Bəyanat "adi təhsil sistemi daxilində" bütün uşaqlar, gənclər və böyüklər üçün təhsil verilməsinin zəruriliyini və aktuallığını qəbul edir, xüsusi təhsil ehtiyacı olan uşaqların normal məktəblərə girmələri lazım olduğunu söyləyir və əlavə edirdilər: İnkluziv bir etikaya sahib olan müntəzəm məktəblər ayrıseçkilik münasibətlərinə qarşı mübarizənin, qonaqpərvər və əhatəli icmaların yaradılması və hamı üçün təhsil əldə etmək üçün ən təsirli yoldur; üstəlik, onlar əksər uşaqlara səmərəli təhsil verir və nəticədə bütün təhsil sisteminin səmərəliliyini artırır.

2001-ci il 5 iyun tarixli 136 nömrəli Sərəncamı ilə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edildi. Qanunun 12-ci maddəsinin tələblərinə əsasən, SİM uşaqların ümumtəhsil müəssisələrində təhsil almalarının təmin etmək üçün "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları" təsdiq olundu. İnteqrasiyalı təhsildə sağlamlıq imkanları məhdud uşaqların ümumtəhsil müəssisələrində xüsusi təhsil proqramları ilə xüsusi siniflərdə təhsilinin təşkili ilə bağlı məsələləri əhatə etsə də, qanununda inklüziv təhsilə dair müddəalar yer almır.

Getdikcə dünyada genişlənən inkluziv təhsil hələ ki, ölkəmizdə təşəkkül tapmasa da, bu təhsil növünün yaranması və inkişafı istiqamətində müəyyən addımlar atılmağa başlanıldı.

"Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005 - 2009-cu illər)" təsdiq eildi. Təhsil Nazirliyi və UNİCEF tərəfindən 2005-ci ildən etibarən Azərbaycanda birgə inkluziv təhsil layihələri həyata keçirilməyə başlanıldı. Və proqram çərçivəsində inklüziv təhsilin təşkili ilə bağlı UNESCO-nun maliyyə dəstəyi ilə 2005-ci ildən 3 pilot layihənin icrasına başlanıldı. 15 ümumtəhsil məktəbi və 13 məktəbəqədər təhsil müəssisəsində 268 əlil uşaq layihələrin icrası müddətində inklüziv təhsilə cəlb edildi.

2008-ci il 2 oktyabr tarixli qanunla Azərbaycan Respublikası "Əlillərin hüquqları haqqında" Konvensiyanı ratifikasiya etmiş, sənəd 28 yanvar 2009-cu il tarixdən qüvvəyə mindi. Konvensiyanın məqsədi onun 1-ci maddəsində göstərildiyi kimi, "bütün əlil insanların insan hüquqları və əsas azadlıqlarına tam və bərabər imkanlarla yararlanmalarına təkan vermək, bunu müdafiə və təmin etmək, habelə onların ləyaqətinə hörmətlə yanaşılmasını dəstəkləməkdir". Hazırda əlilliyi olan şəxslərin hüquqi statusu Azərbaycan Respublikası Konstitusiyası və "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

2009-cu il iyun ayının 19-da təsdiq edilmiş Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda inklüziv təhsilə dair müddəalar yer almasa da, sağlamlıq imkanları məhdud uşaqların təhsili öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın ikinci strateji istiqamətində xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılması da nəzərdə tutulur.

Təhsil Strategiyasının dördüncü strateji istiqamətində də təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə-ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə-tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılmasını nəzərdə tutur (2013).

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının Fəaliyyət Planında (2015-2023) məktəbəqədər və ümumi təhsil müəssisələrinin inklüziv təhsil üzrə məqsədli əlavə təhsil proqramlarının hazırlanması və həyata keçirilməsi nəzərdə tutulsa da, bu proqram hələ ki, pilot layihəsi səviyyəsindədir.

UNICEF-in birgə əməkdaşlığı ilə 2015-2016-cı tədris ilindən "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin icrasına başlanıldı. Layihənin Fəaliyyət Planına əsasən, pilot məktəblərin

direktorları, eksperimental siniflərin müəllimləri, xüsusi təhsil mütəxəssisləri üçün Almaniyada inklüziv təhsil üzrə təlim təşkil edildi və Bakıda onlara Almaniyanın Oldenburq Universitetinin 4 nəfərdən ibarət professor heyəti tərəfindən ikihəftəlik təlim keçirildi.

Layihə çərçivəsində inklüziv təhsil sahəsində yeni yanaşmaların tətbiqi ilə bağlı tədbirlər dörd eksperimental məktəbdə (220, 138, 252 və 202 nömrəli məktəb) uğurla sınaqdan keçirildi. Dörd pilot məktəbdə ümumilikdə (1-4-cü siniflər üzrə) 54 nəfər sağlamlıq imkanları məhdud şəxs inklüziv təhsilə cəlb olundu.

Məktəblərin yerləşdiyi ərazidə yaşayan əlil uşaqların valideynlərinə xüsusi və inklüziv təhsil üzrə maarifləndirici seminarlar keçirildi və həmin məktəblərdə loqopedik xidmət yaradıldı.

2017-ci il 14 dekabrda "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı" təsdiq edildi. Proqramının məqsədi SİM məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir. Hazırlanan sənəd layihələrinin, aparılan araşdırma və tədqiqatların nəticələrinin müzakirəsinin təşkili və müvafiq təkliflərin hazırlanması üçün İşçi Qrupu yaradıldı.

2018-ci ilin may ayından "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması" layihəsinin icrasına başlanıldı. Bununla bağlı Bakı şəhəri, Quba, Şəki, Cəlilabad, Ağcabədi və Şamaxı rayonlarında müəllimlərin inklüziv təhsil sahəsində tədris imkanlarının və pedaqoji resurslarının təkmilləşdirilməsi nəzərdə tutuldu. Layihə çərçivəsində fəaliyyət 4 istiqamətdə – inklüziv təhsil üzrə tədris proqramı və materiallarının təkmilləşdirilməsi, müəllim və yardımçı heyətin bacarıqlarının artırılması, onlar üçün resursların yaradılması, inklüziv təhsil üzrə siyasətin təkmilləşdirilməsi və ictimai maarifləndirmə tədbirlərinin təşkili üzrə aparılırdı. Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filiallarında müəllim və yardımçı mütəxəssislərin inklüziv təhsil üzrə resurslara çıxışını təmin etmək məqsədilə İnklüziv Təhsil Mərkəzləri yaradıldı. Bunlarla yanaşı, respublikada inklüziv təhsilin qanunvericilik əsasları barədə məlumat kitabçası və digər maarifləndirici materiallar hazırlandı.

Eyni zamanda, müəllim və yardımçı heyətin bacarıqlarının artırılması istiqamətində təlimlər təşkil olundu və bu təlimlərdən ibtidai sinif müəllimləri, orta məktəb rəhbərləri, universitetlərin pedaqoji fakültələrində çalışan pedaqoq-müəllimlər və tələbələr faydalandılar.

Sonda onu da qeyd edək ki, araşdırmalara əsasən Azərbaycanda 60 minə yaxın Sağlamlıq imkanları məhdud olan uşaq var. Onlardan yalnız 12 mini təhsilə cəlb olunub, o cümlədən, 1105-i xüsusi məktəblərdə, 2664-ü xüsusi internat məktəblərində, 7750-si evdə, 268-i isə inklüziv təhsil alır. UNICEF-in hesablamalarına görə, Azərbaycanda qeydiyyatdan keçmiş əlilliyi olan 72 000 uşaqdan 54 000 nəfəri ibtidai və orta məktəb yaşındadır. Yəni qeydiyyatda olan məktəb yaşlı əlilliyi olan uşaqların yalnız 20%-i təhsil alır.

## Nəticə

Sağlamlıq imkanları məhdud olanların rastlaşdığı bir çox problem var ki, onlar inkluziv cəmiyyətin yaranmasına və ümumiyyətlə təhsilli əhalinin yetişməsinə ciddi çətinliklər yaradır. Bu sahədə başlıca problem ölkəmizdə inkluziv təhsil sisteminin mövcud olmamasıdır. SİM olan uşaqların sağlam həmyaşıdları ilə birgə təhsili o zaman uğurla gedər ki, qüsurlu uşaqları oxudan ümumi məktəb müəllimləri uşaqların təlim və tərbiyə xüsusiyyətləri barədə məlumatlıdır və dərsləri təhsil sisteminin korrektiv istiqamətliliyini nəzərə alaraq keçirirlər. Ümumtəhsil məktəblərinin müəllimlərinə informasiya və metodiki yardımı həmçinin qüsurlular üçün kitabxanalar göstərə bilər. SİM uşaqların həyatında ciddi irəliləyişlərə səbəb ola biləcək əsas amillərdən biri də müyəssər infrastrukturun yaradılmasıdır. Nəqliyyat strukturu və küçələrin, yolların quruluşu SİM olan şəxslərin müstəqil hərəkət etmlərində ciddi çətinliklər yaradır. Təhsil müəssisələrini bir çoxunun binası və tələbə yataqxanaları da müyəssərlik cəhətdən geri qalırlar. Bu baxımdan da qeyd etmək lazımdır ki, müyəssər infrastrukturun olmadığı bir şəraitdə təhsillə bağlı proqramlar heç bir ciddi effekt verə bilməz.

## Ədəbiyyat

1. Alternativ qayğı üzrə Dövlət Proqramının (2006-2015-ci illər) təsdiqlənməsi barədə məlumat dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi. Azərbaycan Respublikası, 2006 / №1386. Bakı: Respublikanın Qanunvericilik Toplusu
2. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu 19 iyun 2009-cu il // Azərbaycan. 2009, 20 iyun, № 132, (5236)
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013 24 oktyabr.
4. BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasının icrasına dair Azərbaycan Respublikasının ilk hesabatı. Yanvar, 2011-ci il.

5. Əlil uşaqların təhsilə cəlb edilməsi ilə bağlı yeni planlar. Təhsil Nazirliyi, Press-reliz- Sual-cavab, 2014-cü il.
6. İnkişaf Proqramının təsdiq edilməsi haqqında fərman (2018-2024 illər) xüsusi qayğıya ehtiyacı olan uşaqların (əlil uşaqlar) təhsilinin təşkili. Azərbaycan Respublikası. 2017. Bakı: Respublikanın Qanunvericilik Toplusu Azərbaycan.
7. Qasımov S., Talıbov Y. Əlahiddə pedaqogikanın əsasları. Bakı, 2000, 120 s.
8. Malofeyev N.N., Şmatko N.D., İnteqrasiya və xüsusi təhsil müəssisələri: dəyişikliklər zərurəti // Defektologiya 2008. – №2. – s. 86-93.
9. Sağlamlıq imkanları məhdud şəxslərin təhsilə çıxış imkanları: real vəziyyət, beynəlxalq praktika və təkliflər (İqtisadi və Sosial İnkişaf Mərkəzi (CESD), Bakı, 2016.
10. Təqdimat mövzusunda araşdırma. Azərbaycanda əlilliyi olan uşaqlara təhsil xidmətləri [pdf]. Bakı: Mərkəz Təhsildə yeniliklər. 19 İyul 2014.
11. Tuponoqov B.K. Korreksiyaedici pedaqogikanın əsasları. M., 2008.

**Rəyçi: p.e.d. Z.Babayeva**

Göndərilib: 20.09.2020 Qəbul edilib: 22.09.2020